

# MÜHARİBƏ
# VƏ TARİXİ-MƏDƏNİYYƏT
# ABİDƏLƏRİMİZ

Azərbaycan Milli Elmlər Akademiyası
İnsan Hüquqları İnstitutu

T3(2A)
M 91

# MÜHARİBƏ
## VƏ TARİXİ-MƏDƏNİYYƏT
# ABİDƏLƏRİMİZ

İşğal olunmuş Azərbaycan ərazilərində
xanəgahlar, pirlər, ziyarətgahlar

247553

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

BAKI - 2006

HEYDƏR ƏLİYEV FONDU

*təqdim edir...*

# MÜHARİBƏ
## VƏ TARİXİ-MƏDƏNİYYƏT
## ABİDƏLƏRİMİZ

### Türbə

Dəmirçilər kəndində XIV əsrə aid olan türbə vardır. Türbənin daxili gözəlliyi ilə yanaşı, xarici görünüşü də diqqəti cəlb edirdi. Onun üzərində sanki at ayaqlarının ləpirləri həkk olunmuşdur.

### İmamzadə

Novlu kəndi ərazisindəki qədim qəbiristanlıqda Qoç heykəllər olduğuna görə, bu yerə el arasında "Qoçlar" deyilir. Həmin qəbiristanlıqda müqəddəs hesab edilən bir neçə yanaşı qəbir vardır. Rəvayətə görə, bu qəbirlər imam övladlarınındır. Həmin yerə indi də "Qoçlar imamzadəsi" deyilir.

### Salahlı piri

Pir Mərdanlı kəndi ərazisində yerləşir. Saqqızağacı altında hasar içərisində qəbirə nəzir qoyar, Allahdan şəfa diləyərdilər. Övladı olmayanlar bura niyyətlə gələrdilər.

### Türbə (XVII)

Cürcülü kəndi yaxınlığında səkkizguşəli tamamilə salamat qalmış türbə vardır. Türbənin ətrafı qədim qəbiristanlıqdır. Giriş qapısı ilə üzbəüz divarda olan çökək hissə başdaşı formasındadır. Başdaşı yeri və giriş qapısının vəziyyəti, buradakı qəbrin qiblə istiqamətində olması, türbədəki qəbrin və ətrafdakı qəbiristanlığın müsəlmanlara aid olduğunu göstərir.